

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 23 (24.160)

*7 fevral 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana



Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildirir, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

Allah rəhmət eləsin!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 6 fevral 2023-cü il*



*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ulu öndər Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmə sisteminin yaradıcısıdır

2023-cü ildə xalqımız Azərbaycanın ən yeni tarixinin yaradıcısı, müstəqil dövlətçiliyimizin memarı və xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edir. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən müdrik dövlət siyasəti nəticəsində dünya dövlətləri birliyində öz layiqli yerini tutan Azərbaycan Respublikasında mütərəqqi islahatlar aparılmaqla demokratik, hüquqi bir dövlət qurulmuşdur. Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, dövlət müstəqilliyimizin çətin bir dövründə, Azərbaycan dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qaldığı bir vaxtda məhz belə bir dahi şəxsiyyət – Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və liderlik missiyasını öz üzərinə götürdü. Bu tarixi missiyanı xalqın tələbi ilə yenidən öz üzərinə götürən əvəzolunmaz Liderimizin aşağıdakı kəlamına nəzər yetirsək, bir daha görərik ki, bu dahi insan öz xalqına, dövlətinə, millətinə nə qədər bağlı olmuşdur: ***"...Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır..."***

Müstəqil dövlətin demokratik inkişafı, möhkəmləndirilməsi, ölkədə əmin-amanlığın, sabitliyin və müstəqilliyin əbədi olması üçün demokratik Azərbaycan dövlətinin qurulması yeni bir strategiyanın həyata keçirilməsi ilə xarakterizə olunur. 1995-ci ilin noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş yeni Azərbaycan Konstitusiyasının müstəqil dövlətimizin inkişafı tarixində əhəmiyyətli rolu oldu.

Vurğulanmalıdır ki, Ulu Öndərin rəhbərliyi altında bu Konstitusiyanın qəbul edilməsi ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, dövlətin və cəmiyyətin idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində atılan ən böyük addımlardan biri idi.

Konstitusiya müasir dövlət quruculuğu üçün tələb olunan, demək olar ki, bütün prinsipial məqamları özündə əks etdirir. Konstitusiya müddəalarının reallaşdırılması istiqamətində həyata keçirilən ən mühüm nailiyyətlərdən biri mülkiyyətin dövlət, bələdiyyə və xüsusi olmaqla, 3 formasının yaradılması və mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı təminatlardır. Məhz yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə institutu – bələdiyyə orqanları yaradılmış və fəaliyyətə başlamışdır.

Konstitusiyanın qəbulundan sonra "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" və "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası qanunları qəbul edilmişdir. Beləliklə, Azərbaycan Respublikası ərazisində ilk bələdiyyə seçkiləri keçirilənədək yerli özünüidarə ilə bağlı əsaslı hüquqi baza formalaşdırılmış, yerli özünüidarəetmə sahəsini tənzimləyən normativ-hüquqi aktlar qəbul olunmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyev yerli özünüidarəetməni ölkəmizdə gedən demokratiya prosesinin mühüm bir sahəsi kimi dəyərləndirərək bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini də müəyyən etmiş, onun inkişafına xüsusi diqqət və qayğı göstərmişdir. Müasir Azərbaycan dövlətinin qurucusu dahi şəxsiyyət Heydər Əliyev yerli özünüidarəetmə haqqında danışarkən bu strukturun bizim ölkəmizdə demokratik proseslərin vacib hissəsi, mühüm istiqaməti olduğunu xüsusi vurğulamışdır.

Vətəndaşların dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsi məqsədilə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. İctimai iştirakçılığın əsas məqsədləri kimi yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili və qorunması müəyyən olunmuşdur.

Ölkəmizdəki mühüm dəyişikliklər, ictimai həyatın tələbatları bələdiyyələri yeni məqsədlərə, səmərəli fəaliyyətə istiqamətləndirir. Həyata keçirilən mühüm Dövlət proqramlarında icra orqanları ilə bərabər, bələdiyyələrin vəzifələrinin də müəyyən edilməsi onların fəallığının yüksəldilməsini şərtləndirir. Son illər bir çox qanunlara edilmiş dəyişikliklər bələdiyyə torpaqlarından səmərəli istifadəyə xidmət edir və bələdiyyə institutunun cəmiyyətin idarə olunmasında rolunun artırılmasına hərtərəfli şərait yaradır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və inkişafının təmin edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan ədliyyəsinin inkişafına xüsusi diqqət göstərən Ümummilli Liderin ölkə rəhbərliyinə qayıdışından sonra da bu sahə diqqətdə saxlanılmış, hüquq sistemində köklü dəyişikliklərə səbəb olan məhkəmə-hüquq islahatları uğurla həyata keçirilmişdir. Məhz görkəmli dövlət xadiminin yaratdığı və möhkəm əsaslar üzərində qurduğu Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət olaraq dünya birliyində öz layiqli yerini tutmuşdur. Ölkə Prezidentinin müvafiq fərmanlarına əsasən Ədliyyə Nazirliyində yeni qurumlar, o cümlədən Bələdiyyələrlə iş mərkəzi yaradılmışdır. Ölkəmizdə yerli özünüidarəetmə institutunun inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuş və həmişə qayğı göstərilmişdir. Bu qayğı Ulu Öndərimizin dediyi aşağıdakı fikirlərdə bir daha özünü aydın şəkildə göstərir. ***"...Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir. Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir".***

Elə bu qayğının nəticəsidir ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərmək məqsədilə "Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinin bəzi məsələləri haqqında" ölkə Prezidenti tərəfindən 8 fevral 2000-ci il tarixdə Sərəncam imzalandı. Bu Sərəncam bələdiyyələrin işinin təşkili və onlara metodoloji yardım göstərilməsi sahəsində əsas hüquqi baza oldu. Sərəncama əsasən Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə iş və bələdiyyələrə metodoloji yardım mərkəzi yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 may tarixli Sərəncamı ilə mərkəz yenidən təşkil edilərək struktur bölmə kimi Ədliyyə Nazirliyinin aparatına daxil edilmişdir. Bununla mərkəz dövlət orqanı kimi mərkəzi icra hakimiyyətinin strukturuna çevrilmiş və onun statusu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

*Ulu Öndər Heydər Əliyevin demokratiyanın inkişafı istiqamətində başladığı siyasətin bir istiqaməti də yerli özünüidarəetmənin səmərəli təşkilinə yönəlmişdir. Bu siyasət bələdiyyələrin təşkili və formalaşması ilə demokratiyanın inkişafına və yerli əhəmiyyətli problemlərin həllinə müsbət təsir etmişdir. Nəticədə, cəmiyyətimizdə əhalinin mənafeyinin qorunmasında bələdiyyələrin rolu ildən-ilə artır. Artıq ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da bir çox yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələr yaxından iştirak edirlər. Bələdiyyələrə əlavə səlahiyyətlərin verilməsinin nəticəsidir ki, bu qurumların fəaliyyəti ildən-ilə təkmilləşir və onlar üzərlərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində öz səylərini artırırlar.*


**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi, kiçik ədliyyə müşaviri***


## Muxtar respublikada ev təsərrüfatlarının uçota alınması diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikasında ev təsərrüfatlarının uçota alınması istiqamətində cari ilin yanvar ayından başlamış tədbirlər uğurla davam etdirilir.*

Şəhər, qəsəbə, kənd və sahə inzibati ərazi dairələrində hər bir təsərrüfat gəzilərək uçotun aparılması və əldə edilən məlumatların elektron informasiya sisteminə işlənməsi istiqamətində müvafiq işlər görülmüş, 6 fevral 2023-cü il tarixə olan məlumata görə, muxtar respublika üzrə, ümumilikdə, 91555 təsərrüfatda 317 min 713 şəxsin məlumatlarının elektron informasiya sisteminə işlənməsi təmin edilmişdir. Bu istiqamətdə işlər hazırda davam etdirilir.


***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



## İqtisadiyyat



# Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaşa çevrilib

## Yaşıl enerji potensialı isə bu tərəfdaşlığı daha da gücləndirir

*Son dövrlərdə dünyada baş verən mühüm dəyişikliklər, Rusiya və Ukrayna arasında bir ilə yaxındır, davam edən müharibə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına ciddi təsir göstərib. Xüsusilə Rusiyaya qarşı sanksiyaların tətbiqindən sonra Avropa ölkələrinin enerji təminatı üçün alternativ enerji idxalı mənbələri sırasında Azərbaycan ilkin yerlərdən birini tutur. Ötən il iyulun 18-də Avropa Komissiyası Prezidentinin ölkəmizə səfəri çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması bu sahədə atılan mühüm addımlardan biridir.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen arasında imzalanan sənəd Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli və etibarlı tərəfdaş kimi seçilməsinin göstəricisi sayılır. Fevralın 3-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasları artıq bu sənədin icrasına başlandığını təsdiq edir. İclaslarda Rumıniya Prezidentinin, Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələrinin iştirakı bir daha onu deməyə əsas verir ki, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri dünyanın enerji təhlükəsizliyində xüsusi rol oynayır. Keçirilən görüşlərin, aparılan müzakirələrin ən maraqlı tərəflərindən biri də budur ki, mühüm karbohidrogen ehtiyatlarına malik Azərbaycan, eyni zamanda böyük yaşıl enerji ehtiyatlarını özündə cəmləşdirib. Bu cür enerji potensialından istifadəni prioritet istiqamətə yönəldən Azərbaycan Prezidenti çox qısa müddətdə təşəbbüskarı olduğu Yaşıl Enerji Məşvərət Şurasını da etibarlı tərəfdaşlığın əsas müzakirə predmetinə çevirib.



Bu sahədə ilk addım kimi ötən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişə əsasən Azərbaycanın istehsal etdiyi (yaşıl enerji) elektrik enerjisi kabeli Qara dənizin dibi ilə çəkilərək Avropaya çatdırılacaq. Bu isə o deməkdir ki, Azərbaycan qoca qitənin enerji təhlükəsizliyinin daha dolğun şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Qeyd edək ki, artıq bu istiqamətdə ölkəmizdə mühüm addımlar atılmağa başlanılıb. Xüsusilə işğaldan azad olunmuş ərazilərin ölkə başçısı tərəfindən yaşıl enerji zonası elan edilməsi partnyor şirkətlərin bu işə marağını artırıb. Belə ki, Azərbaycanın enerji investisiyalarında mühüm payı olan BP-nin artıq Cəbrayılda 230 meqavatlıq yeni günəş enerji stansiyasının tikilməsi haqqında qərarı bu sahəyə öz töhfəsini verəcək. Zəngəzur dəhlizi vasitəsilə ötürülməsi nəzərdə tutulan enerji xətti üçün artıq Cəbrayıl rayonunda böyük qəbuledici və çevirici stansiya tikilir. Yaşıl enerjini toplayacaq bu stansiya, ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda quraşdırılacaq günəş və külək enerjisi stansiyalarından əldə olunacaq enerjini ixrac üçün yönəldəcək. Adıçəkilən regionların yaşıl enerji potensialı isə hesablamalara görə 9200 meqavat təşkil edir. Hidroenerji potensialı isə minimal olaraq 600 meqavatdır. Ümumilikdə isə azad edilmiş ərazilərdə 30-dan artıq orta və kiçik həcmli su elektrik stansiyası tikiləcək ki, onların da artıq 5-i istismara verilib.



Digər tərəfdən ölkəmizin bərpa olunan enerji potensialında Xəzər dənizinin də mühüm rolu var. Mütəxəssislərə görə, Xəzər Şimal dənizindən sonra külək enerjisi potensialına görə ikinci yerdədir. Xəzər dənizinin Azərbaycan sektorunda külək enerjisi 157 qiqavat təşkil edir. Bunu da qeyd edək ki, külək potensialına malik olan ərazilərimiz içərisində Kəlbəcər və Laçın rayonları da böyük əhəmiyyət daşıyır. Cəbrayıl və Naxçıvan Muxtar Respublikası isə ölkəmizdə günəşli günlərin daha çox olduğu ərazilər kimi tanınır ki, bu da perspektivdə hər iki bölgədə günəş elektrik stansiyalarının qurulmasını qaçılmaz edir. Ümumilikdə isə Azərbaycanın bərpa olunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur. Artıq ölkəmizin strateji investorlarından biri 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır ki, bu enerjinin də 80 faizi ixrac olunacaq.

Təbii ki, Azərbaycanın enerji potensialı və ölkə Prezidentinin bu sahədə həyata keçirdiyi siyasət ən yüksək səviyyədə təqdir olunur. Bakıda keçirilən toplantıda Rumıniya Prezidenti Klaus Yohannisin dediyi kimi, Azərbaycan öz təbii qazının ixracatını şaxələndirir və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə töhfə verir. Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı Kadri Simson isə yaradılan əməkdaşlıq əlaqələrini belə qiymətləndirdi: "Enerji sahəsində strateji tərəfdaşlığa dair bizim yeni anlaşma memorandumumuz Cənub Qaz Dəhlizinin rolunu həm Avropa İttifaqı, həm Azərbaycan üçün gücləndirdi və onun genişlənməsi məqsədilə ümumi qətiyyətimizi nümayiş etdirdi".

*Beləliklə, Şərqlə Qərb arasında logistik enerji əlaqələrini möhkəmləndirən Azərbaycan yaxın illərdə yaşıl enerji dəhlizinə çevrilməklə, ümumilikdə, dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında öz rolunu artıracaq. Bu isə ölkəmizin nüfuzunun, eləcə də beynəlxalq əlaqələrdəki rolunun əhəmiyyətini daha da gücləndirəcək.*

# Əsas məqsəd dövlət-sahibkar münasibətlərinin düzgün təşkili, yeni investisiya və rəqabət mühitinin yaradılmasıdır

*Sahibkarlığın inkişafı hər bir ölkə üçün prioritet sahələrdən sayılır. Çünki bazar iqtisadiyyatı şəraitində bu sahəni inkişaf etdirmədən heç bir tərəqqidən, yeniliklərin tətbiqindən, ümumilikdə isə hərtərəfli inkişafdan danışmaq mümkün deyil. Buna görədir ki, Ümummilli Lider Heydər Əliyev deyirdi:* ***"Sahibkarların səmərəli işləməsi Azərbaycanın iqtisadi inkişafını təmin edən amildir. Ona görə də biz sahibkarlığın inkişafına dövlət siyasətimiz kimi baxırıq. Azərbaycanın sosial-iqtisadi inkişafı bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlıdır".***

Təbii ki, Ulu Öndər Heydər Əliyevin sahibkarlığa bu cür yanaşması, ötən dövrdə həyata keçirilən dövlət siyasətinin ana xəttini təşkil etmiş, ölkəmizdə özəl sektorun formalaşmasına böyük təsir göstərmişdir. Xüsusilə son illərdə ölkə iqtisadiyyatının qeyri-neft sektoru üzərində formalaşması üçün atılan addımlar, dövlətin bu istiqamətdə çağırışları iqtisadi sahədə yeni mərhələnin başlanğıcı kimi qəbul olunur. Milli iqtisadiyyatın, əsasən, kənd təsərrüfatı, qeyri-neft sənayesi və innovativ texnologiyalar üzərində qurulması mühüm prioritet kimi diqqət mərkəzində saxlanılır.

Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada da sahibkarlığın inkişafına yol açmış, yeni istehsal müəssisələri yaradılmış, yerli məhsulların istehsalı diqqət mərkəzində saxlanılmış, nəticədə, 384 növdə məhsulun istehsalına nail olunmuşdur. Ötən dövrdə kiçik sahibkarlığın inkişafına maliyyə dəstəyinin göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində yaradılan Sahibkarlığın İnkişafı Fondu yerli istehsalçıların fəaliyyətinin stimullaşdırılmasına öz töhfəsini vermişdir. Fonddan verilən məlumata görə, ötən il sahibkarlara 7 milyon 184 min 600 manat güzəştli kredit verilmişdir.



Muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində atılan uğurlu addımlardan biri də ailə təsərrüfatlarının yaradılmasıdır. Əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı istiqamətində ixtisaslaşan bu cür təsərrüfatlara maliyyə yardımı, ticarət obyektlərində onlara satış yerlərinin ayrılması və sair kimi amillər təsərrüfatların ildən-ilə sayının artması ilə müşahidə olunmuşdur. Qeyd edək ki, ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 96 ailə təsərrüfatına 1 milyon 441 min 100 manat maliyyə dəstəyi göstərilmişdir. Statistikaya görə, təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2022-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 252 milyon 442 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 21,5 faiz çoxdur. Verilmiş kreditlərin 20 milyon 279 min 400 manatı və yaxud 8 faizi qısamüddətli, 232 milyon 163 min 100 manatı və yaxud 92 faizi uzunmüddətli kreditlər olmuşdur.



Bu gün artıq muxtar respublika yeni iqtisadi mərhələyə qədəm qoyur. Əsas məqsəd regionda dövlət-sahibkar münasibətlərinin düzgün təşkili, yeni investisiya və rəqabət mühitinin yaradılması, sahibkarlar üçün əlverişli şəraitin və əhali məşğulluğunun təmin olunmasıdır.

Yeni fikir olmasa da, hamımıza məlumdur ki, istənilən ölkənin və ya regionun inkişafı onun iqtisadiyyatından, iqtisadiyyatın inkişafı isə sahibkarlığa yaradılmış şəraitdən asılıdır. Bu gün o ölkələr hərtərəfli inkişaf edir ki, orada rahat investisiya mühiti, rəqabət var. Və bu cür inkişaf üçün heç də təbii ehtiyatların, çoxsaylı xammal bazalarının olması şərt deyil. Dövlət bu sahədə qanunvericilik mühitini və sağlam rəqabəti təmin etmək istiqamətində mühüm addımlar atır, gerisi sahibkarların öz öhdəsinə düşür.

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

## Tələbə-Gənclər Təşkilatının qazandığı uğurlar ölkəmizdə həyata keçirilən təhsil siyasətinin bəhrəsidir

*Hər bir xalqın tarixində baş verən siyasi hadisələr onun taleyinə müxtəlif tərəflərdən ciddi təsir göstərir. Azərbaycan xalqı son iki əsrdə çox belə siyasi hadisənin şahidi olub. Təkcə XX əsrdə Azərbaycanın siyasi mühiti dəfələrlə dəyişib. Böyük Oktyabr Sosialist İnqilabı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, sonradan Azərbaycanda sovet hakimiyyətinin qurulması və nəhayət, müstəqil Azərbaycan dövlətinin yaranması... Bütün bunlar, söz yox ki, ölkəmizdəki bir çox sahələrin, o cümlədən iqtisadiyyat, mədəniyyət, ədəbiyyat, tarix, tədrisin və digər ictimai proseslərin fəaliyyətində müəyyən problemlər yaratmışdı. Elə milli təhsilimizi götürək. 70 il sovetlər ittifaqının tərkibində yaşayan Azərbaycanda sovet təhsil ideologiyası hakim olmuş, lakin Azərbaycanın müstəqillik qazanmasından sonra təhsilimizdə də müstəqil siyasət yürüdülməyə başlanmışdır. Xalqımız bir ictimai quruluşdan digərinə keçdiyindən təhsilimiz də sovet ideologiyasından çıxaraq bəşəri xarakter almağa başladı, müasirləşdi, Ulu Öndərin atdığı məqsədyönlü siyasi addımlarla Avropa tipli təhsil siyasəti yarandı. Hər bir ölkənin taleyini təhsilə bağlasaq, o zaman bu, çox çətin, lakin vacib proses idi. Tam əminliklə deyə bilərik ki, bugünkü təhsil siyasəti və ideologiyası yeni cəmiyyətin qanunlarına, yaşam prinsiplərinə uyğunlaşmaqla nümunəvi təhsilin əsasını qoyub.*



Ölkəmizdə mövcud olan təhsil infrastrukturu daim yeni uğurlarla gündəmdə özünə layiqli yer tutur. Hər il artan nailiyyətlər, ali təhsil ocaqlarımızın dünya sıralamalarında yer tutması, tələbə-gənclərimizin müxtəlif forumlarda, beynəlxalq yarışlarda uğur qazanması diyarımızın dünya təcrübəsində daha da tanınmasına şərait yaradır. Qeyd edək ki, ənənəvi təhsildən fərqli olaraq yeni təhsilin mövcud imkanları tədrisin keyfiyyətini yaxşılaşdırmaqla bərabər həm də bu istiqamətdə yenilikçi ideyaların yaranmasını labüd edib. Məlumdur ki, Azərbaycan təhsil məkanında mövcud olan TEC, TGT, Könüllülər forumu və digər sahələr təhsilin inkişafını sürətləndirən amil kimi çıxış edir və kifayət qədər uğurlarla yaddaşlarda qalır. 2 fevral – Gənclər Gününə həsr edilmiş "ReBrend" forumunda Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının "İlin TGT-si" seçilməsi və muxtar respublika ictimaiyyətinin, ziyalı insanların, o cümlədən ali təhsil ocağının professor-müəllim kollektivinin sevincinə səbəb olması sadaladığımız islahatların real nəticəsi kimi öz aktuallığını qoruyur. Elə biz də adıçəkilən təşkilatla daha yaxından tanış olmaq, fəaliyyət istiqamətləri ilə maraqlanmaq üçün Naxçıvan Dövlət Universitetinin yolunu tutduq, Tələbə-Gənclər Təşkilatının sədri, ali təhsil ocağının müəllimi ***Əziz Qasımov***la həmsöhbət olduq.

Naxçıvan Dövlət Universitetinin gənc müəllimi, prezident mükafatçısı Əziz Qasımov ilk olaraq ölkəmizdə təhsilin inkişaf mövzusuna qısaca toxundu: – Hər bir azərbaycanlı üçün məlumdur ki, Ulu Öndərin əsasını qoyduğu təhsil siyasəti dərin milli mənafelər üzərindən pərvəriş taparaq ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir. Yüksək səviyyədə yaradılmış ali təhsil sistemi cəmiyyətin, dövlətçiliyin, iqtisadiyyatın və sosial-rifahın inkişafını təmin edir, ölkənin siyasi, hüquqi, beynəlxalq və hərbi qüdrətini gücləndirir. Görkəmli dövlət xadiminin istər sovet ittifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dövrdə ölkəmizə rəhbərlik etdiyi zamanlarda həyata keçirdiyi təhsil siyasəti mühüm fundamental və tarixi əhəmiyyətli məqsədləri hədəfləmişdir. Dahi rəhbərin təhsil strategiyasının kökündə Azərbaycan iqtisadiyyatının, sənayesinin, savadlı əhalinin inkişafına yönəlmiş strateji addımlar, ən əsası isə milli-mənəvi dəyərlərin qorunması, yaşadılması, xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili, folkloru və bütövlükdə, milli yaddaşının mühafizəsi və ölkənin qüdrətli gələcəyinə xidmət etməsi dururdu. Bu gün artıq ölkəmizin bütün istiqamətlərində, eləcə də təhsil sahəsində sözügedən inkişaf strategiyasının real mənzərələrini görürük, bu da bir ziyalı kimi bizə stimul verir.

Yuxarıda da diqqətə çatdırdığımız kimi Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatı artıq bir neçə ildir ki, təşkilatlar arasında layiqli yer tutur. Bu, ali təhsil ocağının nüfuzunu yüksəltməklə bərabər həm də tələbə-gənclərin düzgün təhsil almasına, vaxtlarının səmərəli keçirilməsinə, həmçinin onların bir çox layihələrdə iştirakına, digər ali təhsil müəssisələri ilə əlaqələrinin gücləndirilməsinə geniş şərait yaradır. Əziz Qasımov Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının fəaliyyət istiqaməti ilə bizi, eləcə də oxucularımızı tanış etdi: – Gənclər təşkilatları dövlət gənclər siyasətinin əsas istiqamətlərindən biri olmaqla yanaşı, vətəndaş cəmiyyətinin qurulmasında gənclərin iştirakını şərtləndirən əsas amillərdən biridir. Gənclər təşkilatlarda birləşərək öz imkan və bacarıqlarını konkret istiqamətlər üzrə səfərbər etməklə həm öz mənini axtarıb tapır, həm bir fərd kimi inkişaf edir, həm də vətəndaş cəmiyyətinin fəal iştirakçısı olurlar. Məhz bu səbəbdən gənclər təşkilatlarında işin təşkili və bu istiqamətə dövlətin diqqət göstərməsi gələcək nəslin hərtərəfli inkişafını köklü şəkildə təmin etmiş olur.

Müsahibimiz təşkilatın yaranma tarixi, inkişaf yolu və qazandığı nailiyyətlər barəsində söhbətimizə belə davam edir: – Naxçıvan Dövlət Universitetində 1998-ci ilin may ayında təsis olunmuş, bu il 25 yaşını qeyd edəcək Universitet Tələbə-Gənclər Təşkilatı bu illər ərzində uğurlu inkişaf yolu keçmişdir. Fəaliyyəti dövründə təşkilat dəfələrlə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən "İlin fəal tələbə-gənclər təşkilatı", ATGTİ tərəfindən "İlin TGT-si" adına layiq görülmüşdür. Son 5 ildə ali təhsil ocağının Tələbə-Gənclər Təşkilatının iki sədri Azərbaycan Respublikasının Prezidenti tərəfindən Gənclər üçün Prezident mükafatına layiq görülmüşdür. Bununla yanaşı, qeyd edim ki, təşkilatın əsas vəzifələri tələbələrin hüquqlarının müdafiəsinin təmin edilməsi; tələbələrin problemlərinin həlli istiqamətində işin həyata keçirilməsi; tələbələr arasında maarifləndirmə işinin aparılması; tələbələrin asudə vaxtının səmərəli təşkil edilməsidir. Həmçinin tələbələr universitetdə təhsil aldıqları dövrdə təşkilatın fəaliyyətində iştirak etməkdə bərabərhüquqludurlar və bir neçə səlahiyyətlərə malikdirlər: Təşkilatın hər hansı seçkili orqanını seçmək, təhsilinin axırıncı ilində olan tələbələr istisna olmaqla seçilmək; öz hüquqlarının müdafiəsinə kömək göstərilməsi üçün təşkilata müraciət etmək; təşkilatın fəaliyyəti ilə bağlı məlumat əldə etmək; təşkilatın təşkil etdiyi tədbirlərdə iştirak etmək; müxtəlif layihə təklifləri ilə çıxış etmək; təşkilatın nəzdində klub yaratmaq və digərləri.

Əziz Qasımov dedi ki, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının nəzdində hazırda 20 tələbə klubu fəaliyyət göstərir. Klublara üzv olan tələbə sayı 2000-ə yaxındır.

31 yanvar 2023-cü ildə Azərbaycan Gənclər Fondunun dəstəyi, ATGTİ-nin təşkilatçılığı ilə Bakı Konqres Mərkəzində keçirilən tələbə-gənclər təşkilatlarının "ReBrend" Forumunda il ərzində aktiv fəaliyyət göstərən tələbə-gənclər təşkilatları və onların nümayəndələri mükafatlandırılmışdır. Həmin Forumda Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatı "İlin Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırıldı. Qeyd edək ki, eyniadlı mükafata ali təhsil ocağımızın Tələbə-Gənclər Təşkilatı 2022-ci ildə keçirilən "Tələbə-Gənclər təşkilatlarının I strateji planlaşdırma" forumunda da layiq görülmüşdü.

*Əlli ildən artıq bir zaman müddətində ölkəmizin ictimai-siyasi, sosial və təhsil sahəsində öz sözünü demiş Naxçıvan Dövlət Universiteti son bir-iki il ərzində öz inkişaf tarixinin yeni mərhələsinə qədəm qoyub. Bu dövrü digərlərindən fərqləndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, artıq ali təhsil ocağı müasir Avropa tipli təhsil siyasətinin imkanlarını mənimsəməklə öz tədris yolunu bu istiqamətdə qurur. Bu həm təhsilin daha əlverişli qurulmasına, həm də bu elm məbədgahının dünya arenasında özünə layiqli yer tutmasına şərait yaradır. Gənc ziyalı Əziz Qasımovun da dediyi kimi Naxçıvan Dövlət Universiteti müəyyənləşdirdiyi dəstəklə irəliləməklə qısa zaman müddətində nəinki regionun, hətta dünyanın qabaqcıl ali təhsil ocaqları içərisində birinci yerdə duracaq.*

**✍ Məcid RƏŞADƏTOĞLU**

---

*Fevralın 6-da Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) muxtar respublikada fəaliyyət göstərən media nümayəndələri ilə görüşü keçirilib.*

## Ombudsman təsisatında media nümayəndələri ilə görüş keçirilib



Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı) Günay Rzayeva və Ombudsmanın əməkdaşları, "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultan, Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının, "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, "Şərq qapısı" qəzetinin, "Nuhçıxan" İnformasiya Agentliyinin, *naxcivanxeberleri.com* saytının əməkdaşları, o cümlədən İctimai TV və Radio Yayımları Şirkətinin, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, APA İnformasiya Agentliyinin və Baku TV internet televiziyasının Naxçıvan üzrə bölgə müxbirləri iştirak ediblər.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva çıxış edərək Ombudsman tərəfindən informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarətin həyata keçirilməsi, informasiya əldə etmək hüququnun pozulması ilə əlaqədar daxil olan müraciətlərə baxılması və cavablandırılması barədə tədbir iştirakçılarına məlumat verib.

Tədbirdə iştirak edən media nümayəndələri ölkəmizdə informasiya əldə etmək hüququnun təmin olunması istiqamətində həyata keçirilmiş tədbirlər, informasiya sahiblərinin bu istiqamətdəki vəzifələri, informasiya sorğularının icrası barədə məlumatlandırılıblar.

Diqqətə çatdırılıb ki, media və jurnalist hüquqlarının müdafiəsi, kütləvi informasiya vasitələrinin nümayəndələrinin hüquqi biliklərinin artırılması məqsədilə bu tipli tədbirlərin təşkili xüsusi əhəmiyyət daşıyır.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

---

## "AzStateNet" şəbəkəsinin genişləndirilməsi istiqamətində Naxçıvan Muxtar Respublikasında işlər davam etdirilir

Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının informasiya təhlükəsizliyinin gücləndirilməsi məqsədilə "AzStateNet" Data, İnternet və "Voice" şəbəkələrinin Naxçıvan Muxtar Respublikasında qurulması və dövlət qurumlarının bu şəbəkəyə qoşularaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində işlər davam etdirilir.

Bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilib ki, hazırda Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Naxçıvan Baş İdarəsinin "AzstateNet" Data, İnternet və "Voice" şəbəkələrinə qoşulması təmin olunub.

**AZƏRTAC**

---

## Ədliyyə işçiləri üçün treninq



*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində vətəndaşlarla daha çox təmasda olan və onlara xidmət göstərən əməkdaşlar üçün "Vətəndaşlarla effektiv ünsiyyətin qurulması" mövzusunda treninq təşkil edilib.*

Təlimdə "Ədliyyə işçilərinin xidməti davranış qaydalarına dair qanunvericiliyin tələbləri", "Ünsiyyətin verbal və qeyri-verbal vasitələri" və "İdarəetmənin psixologiyası və vətəndaşlarla effektiv ünsiyyət" mövzuları üzrə mühazirələr diqqətə çatdırılıb.

Tədris proqramında nəzərdə tutulmuş mövzuların tədrisi nazirliyin Kadrlar bölməsinin rəisi, ədliyyə müşaviri Niyaməddin Əliyev, Məhkəmə Ekspertizası Mərkəzinin Psixoloji ekspertiza bölməsinin rəisi, II dərəcəli ədliyyə qulluqçusu Valeh Fərəcov və Naxçıvan Müəllimlər İnstitutunun tədris və tərbiyə işləri üzrə prorektoru, psixologiya üzrə fəlsəfə doktoru, dosent Çapay Quliyev tərəfindən həyata keçirilib.

Təlimdə ədliyyə qulluqçularının davranış qaydalarına dair qanunvericilikdən irəli gələn əsas məqamlar barədə ətraflı məlumat verilib.

Sonda suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

---

## Xilasedicilərimiz Qəbələ rayonunda keçirilən təlimdə iştirak ediblər



Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi və Avstriya Respublikası Federal Daxili İşlər Nazirliyinin qarşılıqlı əməkdaşlığı çərçivəsində Qəbələ rayonu "Tufandağ" Xizəksürmə Mərkəzində xizəksürmə və qar uçqunlarında axtarış-xilasetmə üzrə təlim keçirilib. Təlim nazirliyin xilasedicilərinin mürəkkəb relyefli və çətin iqlim şəraitində, eləcə də qar uçqunları zamanı yaranmış vəziyyətin qiymətləndirilməsi, axtarış-xilasetmə, zərərçəkmişlərin təxliyəsi və onlara ilkin yardımın göstərilməsi üzrə bilik və bacarıqlarının artırılması, bu istiqamətdə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə təşkil olunub.

Nəzəri və praktiki hissədən ibarət olan təlimə nazirliyin müvafiq qurumlarının şəxsi heyət və texnikaları, xüsusi təlim görmüş itlər cəlb edilib.

Təlimin gedişində avstriyalı mütəxəssislər tərəfindən şəxsi heyətə qar uçqunları zamanı istifadə olunan müasir axtarış-xilasetmə texnika və avadanlıqları, onların taktiki-texniki xüsusiyyətləri və istifadə qaydaları, qar uçqunu altında qalan zərərçəkmişlərin xilas edilməsi və təxliyəsi, müvafiq təhlükəsizlik qaydaları üzrə nəzəri məşğələlər keçirilib.

Təlimin praktiki hissəsində avstriyalı mütəxəssislərin təlimatları əsasında xilasedicilər mürəkkəb relyefli dağlıq ərazilərdə əlverişsiz hava şəraitində axtarış-xilasetmə işlərinin təşkili, qar uçqunu altında qalmış zərərçəkmişlərin xilasetmə avadanlıqlarından istifadə etməklə axtarışı, xilas olunması, ilkin yardımın göstərilməsi üzrə praktiki tapşırıqlar yerinə yetiriblər.

Təlimdən sonra xilasedicilərə Avstriya Daxili İşlər Nazirliyinin müvafiq sertifikatları təqdim olunub.

Qeyd edək ki, Qəbələ rayonunda keçirilən təlimdə Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin xilasedicilərı də yaxından iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***



Azərbaycan peşəkar milli teatrı — 150

# Naxçıvan teatrı — sənətsevərlərin sevimli ünvanı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2023-cü il 3 fevral tarixdə Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 illiyi münasibətilə bağlı Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, dramaturgiyamızın tarixinin hər bir inkişaf mərhələsində Azərbaycan teatrı orijinal aktyor məktəbi ilə əlamətdar olmuş, yüksək səhnə mədəniyyətinə malik sənatkarlar və istedadlı rejissorlar nəsli yetişdirmişdir. Ölkəmizdə bütünlüklə milli dəyərlər zəminində dolğun fəaliyyəti üçün geniş inkişaf perspektivləri açılan teatrların şəbəkəsi vardır. Bu teatrların kollektivləri dünya təcrübəsindən uğurla bəhrələnərək davamlı yeniləşdirdikləri repertuarlarında mütərəqqi məzmunlu, humanist ideyalı əsərlərə xüsusi yer ayırmış, insanlarımıza milli dramaturji irsin dərin mənəviyyat aşılayan şah əsərləri və xarici ədəbiyyatın estetik zövq formalaşdıran qiymətli nümunələri ilə daha yaxından tanış olmaq imkanı qazandırmışlar.***



Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir. Respublikamıza rəhbərlik etməyə başladığı ilk illərdən milli-mənəvi dəyərləri ön planda tutmaqla tarixi-mədəni irsimizə münasibətdə dönüş yaradan Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycan teatrının 100 illik yubileyinin təntənəli qeyd olunması diqqətəlayiq mədəniyyət hadisəsinə çevrilmiş və teatrımızın çiçəklənməsinə yeni stimul vermişdir.

Muxtar respublikamızda fəaliyyət göstərən teatrlar da mədəniyyətin və xalqın milli ruhunun inkişafında, ümumxalq mədəni səviyyəsinin yüksəlməsində mühüm əhəmiyyət kəsb edir.

Ölkə başçısının Azərbaycan teatrının 150 illik yubileyinin keçirilməsi ilə əlaqədar imzaladığı Sərəncamla bağlı teatr tədqiqatçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent ***Ələkbər Qasımov***la həmsöhbət olduq. Naxçıvan Dövlət Milli Dram Teatrının incəsənətimizin, milli mədəniyyətimizin inkişafındakı xidmətləri haqqında danışmağı xahiş etdik. Ələkbər müəllim bildirdi ki, böyük tarixi olan ölkə teatrlarımızdan biri də Naxçıvan Dövlət Milli Dram Teatrıdır. Bu mədəniyyət ocağı 1883-cü ilin mart ayından başlayaraq böyük inkişaf yolu keçib. Naxçıvan teatrının adı görkəmli maarifpərvər, ziyalı, yazıçı, tərcüməçi Eynəlibəy Sultanovla bağlı olub. İlk dəfə Eynəlibəy Sultanovun rəhbərliyi ilə mütərəqqi Naxçıvan ziyalılarının yaratdığı “Müsəlman incəsənəti və dram cəmiyyəti” tərəfindən 1883-cü ildə Mirzə Fətəli Axundovun “Müsyö Jordan və dərviş Məstəli şah” əsəri tamaşaya qoyulub. Bu tamaşa ilə Azərbaycan teatrının digər bir qolu olan Naxçıvan teatrı pərvəriş tapıb. Ardınca Mirzə Fətəli Axundovun “Molla İbrahimxəlil kimyagər”, “Lənkəran xanının vəziri”, “Hacı Qara” komediyaları, Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin”, Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq”, Nəriman Nərimanovun “Nadir şah”, həmçinin Eynəlibəy Sultanovun “Tatarka” (Azərbaycan qadını) pyesi əvvəl rus, sonra doğma dilimizdə tamaşaya qoyulub.

Teatrın inkişafında görkəmli ziyalılarımız Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Hüseyn Cavid, Rza Təhmasib və Bəhruz Kəngərli danılmaz xidmətlər göstəriblər. Teatr səhnəsinə qoyulan dünya klassiklərinin əsərləri, həmçinin musiqili əsərlər mühüm əhəmiyyət kəsb edirdi. Ötən əsrin 30-50-ci illərində dünya dramaturgiyası və milli, klassik və müasir dramaturgiyamızın ən gözəl nümunələri müxtəlif rejissorlar tərəfindən tamaşaya qoyulurdu. Müsahibimin sözlərinə görə, həmin dövrlərdə Naxçıvan teatrında Səməd Mövləvi, İsa Musayev, İbrahim Həmzəyev, Əyyub Haqverdiyev, Xədicə Qazıyeva, Firuzə Əlixanova, Zəroş Həmzəyeva, Roza Cəfərxanova kimi istedadlı aktyorlar çalışıblar. Teatra 1938-ci ildə Mirzə Fətəli Axundovun, 1965-ci ildə Cəlil Məmmədquluzadənin adı verilib.



Ələkbər Qasımovun sözlərinə görə, məhz həmin il teatrın yeni binasında Kəmalə Ağayevanın mənzum pyesi “Məhsəti” səhnəyə qoyulub. Həmin vaxtdan Kəmalə xanım Azərbaycan dramaturgiyası və milli teatr tariximizə mənzum dramların ilk qadın müəllifi kimi daxil olub. “Məhsəti” tamaşasının quruluşçu rejissoru Baxşı Qələndərli, quruluşçu rəssamı Məmməd Qasımov, bəstəkarı Məmməd Ələkbərov idi.

Müsahibim qeyd edir ki, mən balaca olanda “Məhsəti”nin köhnə binada gedən bütün məşqlərinə evdə tək qalmayım deyə iştirak etmək məcburiyyətində olurdum. Yeni binada, demək olar ki, bütün yeni tamaşaların premyeralarına baxırdım. Elə bu mühit də məni rejissorluq sənətinə həvəsləndirdi.

1965-ci ildə Naxçıvan teatrı ilk dəfə olaraq paytaxt Bakıda üç tamaşa ilə yaradıcılıq hesabatı verdi. O dövrün mərkəzi mətbuatının yazdıqlarından aydın olunur ki, həmin tamaşalar, xüsusən də “Məhsəti” rəğbətlə qarşılanıb, baş rolun ifaçısı Zəroş Həmzəyevanın, eləcə də digər aktyorların oyunları yüksək qiymətləndirilib. Ötən əsrin 60-70-ci illərində teatrda ali ixtisas təhsilli gənclərin sayı artmağa başladı. Belə gənclərdən biri də gənc rejissor Vəli Babayev idi. O, Naxçıvan səhnəsində bir-birindən maraqlı tamaşalara quruluş verib. 1970-ci ildə Naxçıvan teatrı ikinci dəfə Bakıya səfər edərək K.Qoldoninin “Mehmanxana sahibəsi” tamaşasını nümayiş etdirib və həmin tamaşa birbaşa yayımla bütün respublikaya göstərilib. 1987-ci ildə Tbilisidə keçirilən Ümumittifaq Teatr Festivalında Naxçıvan teatrı Sofoklun “Elektra” tamaşasını təqdim edərək yüksək qiymət alıb. Həmin tamaşa Moskvadan Mərkəzi Televiziya vasitəsilə bütün sovet tamaşaçıları üçün nümayiş etdirilib. 1989-cu ilin əvvəllərində məlum ictimai-siyasi hadisələr burulğanında bağlanmaq təhlükəsi ilə üzləşmiş Naxçıvan teatrı 1991-ci ilin sonlarında muxtar respublika Ali Məclisinin Sədri vəzifəsində işləyən Ulu Öndər Heydər Əliyevin sayəsində himayə olunaraq yenidən dirçəlib. Məhz dahi şəxsiyyət Heydər Əliyevin qonşu ölkələrlə bağladığı müqavilələr əsasında 1992-1994-cü illər arasında bu qədim sənət ocağının qardaş Türkiyəyə və İran İslam Respublikasına səmərəli qastrol səfərləri təşkil olunub. Müstəqillik illərində muxtar respublikada bütün sahələrlə yanaşı, mədəniyyət sahəsi də, o cümlədən teatr da inkişaf yoluna qədəm qoyub. 2008-ci ildə Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Naxçıvan Teatrının 125 illiyi təntənəli surətdə qeyd olunub, bir qrup aktyor və texniki işçi Azərbaycanın və muxtar respublikanın fəxri adları ilə təltif edilib, digər dövlət mükafatlarına layiq görülüblər. Bu il 140-cı teatr mövsümünün açılışı İlyas Əfəndiyevin “Xurşidbanu Natəvan” tamaşası ilə başlayıb.

Digər müsahibimiz Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru, Azərbaycan Respublikasının Xalq artisti, Prezident mükafatçısı ***Rza Xudiyev*** bildirdi ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 26 aprel tarixli Qərarı ilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına “Milli” status verilməsi dövlətimizin bu sahəyə olan qayğısının ifadəsi, özünəməxsus ənənələri ilə seçilən Azərbaycan mədəniyyətinə verilən dəyərin bariz nümunəsidir. Teatrın kollektivi belə qayğıya öz əməli işi ilə cavab verməyə çalışır. Rza Xudiyevin sözlərinə görə, teatr ötən il Türkiyə Respublikasının Ərzurum şəhərində Karel Çapekin “Ana” tamaşasını təqdim edib. Eləcə də yaz və payız mövsümlərində muxtar respublikanın bütün rayonlarına qastrollar təşkil olunub. Həmin qastrol səfərlərində Karel Çapekin “Ana”, Elçinin “Teleskop”, Nikolay Vasilyeviç Qoqolun “Müfəttiş”, Hüseyn Cavidin “Topal Teymur”, İlyas Əfəndiyevin “Xurşidbanu Natəvan” əsərləri uğurlu səhnə həlli ilə tamaşaçılara yüksək ovqat bəxş edib. Teatrın direktoru milli teatrımızın 150 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ilə bağlı tarixi sərəncamı milli mədəniyyətimizə verilən yüksək dəyər kimi qiymətləndirdi. O, kollektivin bu sənət bayramını yaddaqalan sənət uğurları ilə qeyd edəcəyini söylədi.

*Müsahiblərin sözlərindən bir daha belə qənaətə gəldik ki, bundan sonra da teatrı yeni uğurlar gözləyir. Naxçıvan teatrı bir-birindən maraqlı tamaşalarla daha böyük auditoriya toplayaraq mədəniyyətimizin inkişafına yeni töhfələr verəcək.*

**Bülbül QULİYEVA**

## Kükülüləri narahat edən məsələ həllini tapdı

“Şərq qapısı” qəzetinin *serqqapisi.gov.az* rəsmi internet saytında 23 yanvar 2023-cü il tarixdə yerləşdirilən “Kükülüləri narahat edən məsələ həllini tapacaqmı?” tənqidi yazısında gündəmə gətirilən məsələ öz həllini tapdı. “Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti” publik hüquqi şəxsin Müfəttişlik və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzovun qəzetə verdiyi məlumata görə, artıq fevral ayının 1-dən etibarən Naxçıvan-Kükü istiqamətində 3-cü marşrut xətti açılıb.

Qeyd edək ki, əvvəllər Naxçıvan-Kükü və əks-istiqamətə gündəlik yalnız 2 dəfə mikroavtobuslar sərnişinlərə nəqliyyat xidməti göstərirdi. Günorta saat 2-dən sonra isə, ümumiyyətlə, sakinlərin kəndə qayıtmaq imkanı kəsilirdi. Bu, xüsusilə iş vaxtı axşam saatlarında yekunlaşanlar, ikinci növbə təhsil alan tələbələr üçün maddi çətinliklər yaradırdı. Yeni marşrut xəttinin açılması ilə artıq kənd sakinləri saat $18^{00}$-da da Naxçıvan şəhərindəki Avtovağzal kompleksindən mikroavtobusla yaşayış məntəqəsinə gedə bilirlər.

**Nail ƏSGƏROV**

## Atletlərimizdən növbəti uğur



Bakı şəhərində 18 yaşadək idmançıların Qış Azərbaycan Birinciliyi keçirilib. Respublika Olimpiya Mərkəzində reallaşan yarışda idmançılar 60, 200, 400, 800,1500, 3000 metr məsafələrə qaçış, 4x200 metr estafet qaçışı, uzunluğa tullanma, hündürlüyə tullanma və nüvə itələmə növləri üzrə yarışıblar.

Birincilikdə Naxçıvanı təmsil edən atletlər uğurlu nəticələrə nail olublar. Naxçıvan Atletika Federasiyasının idmançılarından Aysu Abbasova və Onur Bayramov mükafatçılar sırasına düşə biliblər.

Son illər ölkə birinciliklərində ardıcıl nailiyyətlərə imza atan 14 yaşlı atletimiz Aysu Abbasova 1500 metr məsafəyə qaçışda 5 dəqiqə 52.53 saniyəlik göstərici ilə qalib olub. Sədərək rayonundan olan təmsilçimiz 800 metr məsafədə (2:52.55) ikinci olmaqla yarışı bir qızıl və bir gümüş medalla tamamlayıb. Onur Babayev isə 60 metr məsafədə sprinterlərin mübarizəsinə qatılıb. İlk dəfə ölkə miqyaslı yarışda iştirak edən Onur finişə ikinci çataraq gümüş medala layiq görülüb.

Əlavə edək ki, Bakı şəhərində məskunlaşan idmançımız Kamran Məmmədov Naxçıvanı təmsil edən atlet kimi 400 metr məsafədə ikinci olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


## Elan

Naxçıvan Diaqnostika Müalicə Mərkəzi dərman, sarğı materiallarının və tibbi ləvazimatların, ərzaq və təsərrüfat mallarının, tibbi avadanlıqların servis xidməti üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Maraq məktubu
- Malsatanın satdığı dərman, sarğı materialları və tibbi ləvazimatlar, ərzaq və təsərrüfat malları, tibbi avadanlıqların servis xidməti haqqında məlumat.

Qeyd olunmuş sənədlər toplusunu 15 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Diaqnostika Müalicə Mərkəzinə təqdim etmək lazımdır.

***Naxçıvan Diaqnostika Müalicə Mərkəzi***
***Əlaqə telefonu: (036) 545-99-55***
***(070) 994-04-70***

***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxs dərman, sarğı materiallarının və tibbi ləvazimatların alınması üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Maraq məktubu
- Malsatanın satdığı dərman, sarğı materialları və tibbi ləvazimatlar haqqında məlumat.

Qeyd olunmuş sənədlər toplusunu 15 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsə təqdim etmək lazımdır.

***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxs dəftərxana və təsərrüfat mallarının alınması üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Maraq məktubu
- Malsatanın satdığı dəftərxana və təsərrüfat malları haqqında məlumat.

Qeyd olunmuş sənədlər toplusunu 15 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsə təqdim etmək lazımdır.

***

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxs yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyim formalarının alınması üçün tender sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Maraq məktubu
- Malsatanın satdığı yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyim formaları haqqında məlumat.

Qeyd olunmuş sənədlər toplusunu 15 fevral 2023-cü il, saat $18^{00}$-a kimi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsə təqdim etmək lazımdır.

***Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxs***
***Əlaqə telefonu: (036) 545-20-43***

### İtmişdir

Hüseynov Faiq Cabbar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Güntac Şahməmmədli

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 95